# Azərbaycan Cənubi Qafqazda Meksikanın mühüm tərəfdaşıdır



**Bəşəriyyət öz inkişafında elə mərhələyə gəlib çatmışdır ki, həm Qərb, həm də Şərq ölkələri arasında sosial-iqtisadi göstəriciləri yüksək olan dövlətlər meydana çıxmışdır. Onların bəziləri qədim sivilizasiyaların beşiyi olmuş regionlarda yerləşir. Belə ölkələrdən biri Meksika Birləşmiş Ştatlarıdır. Bu ölkə özünəməxsus tarixə, zəngin mədəniyyətə, füsunkar təbiətə malikdir. Onun əhalisi də bizim xalqımız kimi qonaqpərvərliyi, sadəliyi ilə seçilir.**



Meksika həm də turistlərin, idmançıların, etnoqrafların diqqətini çəkən bir ölkədir. Onun tarixinə diqqət yetirsək görərik ki, bu sadə və zəhmətkeş xalq öz azadlığı və istiqlaliyyəti uğrunda qanlı savaşlardan keçib gəlmişdir. Bu gün öz müstəqilliyinin, azadlığının ildönümünü bayram edən meksikalılar inamlı addımlarla gələcəyə doğru irəliləməkdədirlər.

Qoşulmama hərəkatının fəal üzvlərindən biri olan Meksika artıq dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, son illər ərzində həyatın müxtəlif sahələrində inkişaf göstəricilərinə görə bu ölkə yeni-yeni uğurlara imza atmışdır. Belə ki, 2022-ci ildə ölkədə ümumi daxili məhsulun həcmi 1414 milyard dollar olmuşdur. Ötən il ərzində əhalinin adambaşına düşən ümumi daxili məhsulun həcmi isə 9.756 dollar təşkil etmişdir.

2023-cü ilin iyuluna olan məlumata görə, dövlət gəlirləri 37 milyard dollar təşkil etmişdir. İxracat məhsullarının həcmi 47.55 milyard dollar, idxalatın həcmi isə 48.432 milyard dollar olmuşdur. Cari ilin ikinci rübündə dövlətin qızıl ehtiyatları 120 ton olmuşdur.

Qədim tarixi abidələri, göz oxşayan çimərlikləri, özünəməxsus mətbəxi olan bu ölkədə xarici turistlərin diqqətini daima özünə cəlb edən mühüm amillər olmuşdur. Təsadüfi deyil ki, bu ilin iyuluna olan məlumata əsasən, turizmdən əldə edilmiş gəlir 2.648 milyard dollara çatmışdır.

Son zamanlar Meksikada sənayenin bir sıra aparıcı sahələri formalaşmışdır. Dünya rəqabətinə davamlı məhsulların istehsalı alıcıların sayını çoxaltmışdır. Metallurgiya zavodları, maşınqayırma, kimya, neft-kimya, pambıq-parça və qida sənayesi Meksikanın emaledici sənayesinin əsasını təşkil edir. Ölkə iqtisadiyyatı 2022-ci ildə üç faiz artmışdır. Cari ildə bu tendensiya davam edir. Meksika məhsul ixracının həcminə görə dünyada 12-ci yeri tutur.

Xarici siyasət sahəsində də yaxın və uzaq ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verilir. Meksika BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi ardıcıl surətdə Cənubi Qafqazda sülh prosesinə dəstəyini davam etdirir. Bu cəhətdən Azərbaycan Respublikasının siyasi rəhbərliyi iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından sonra siyasi münasibətlərin müsbət məcrada inkişafına hərtərəfli təkan verir. Meksika rəhbərliyi də bunu olduqca müsbət qarşılayır.

Hazırda iki ölkə arasında çoxtərəfli platformalarda, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Həmçinin iki ölkə parlamentləri arasında əlaqələrin yaradılması digər sahələrdə də əməkdaşlığın inkişafına müsbət zəmin yaradır.

Keçən ilin martında Meksika parlamentində Meksika-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu yaradıldı. Bundan sonra Azərbaycan Milli Məclisinin və Meksika Deputatlar Palatasının parlamentlərarası əlaqələr üzrə dostluq qrupları arasında videokonfrans formatında görüş keçirildi. Meksika Konqresinin Azərbaycan üçün həssas məsələlərdə həmişə ədalətli mövqe nümayiş etdirməsi həm ölkəmizin siyasi dairələri, həm də ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır.

Qarabağ münaqişəsi dövründə Meksika hökumətinin və parlamentinin nümayiş etdirdiyi ədalətli mövqe Azərbaycan dövlətinin və xalqının böyük rəğbətinə səbəb olmuşdur. Eləcə də Meksika Konqresinin hər iki palatası tərəfindən Xocalı soyqırımının tanınması bu sahədə ciddi həmrəyliyin nümayişi idi. Meksika parlamentinin 2011-ci ildə Dağlıq Qarabağ münaqişəsi və Xocalı faciəsi ilə bağlı obyektiv gerçəkliyi əks etdirən sənədlər qəbul etməsi bu istiqamətdə mühüm addım oldu. Bunun ardınca Mexiko şəhərinin Tlakskoake meydanında Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldıldı. Ümumiyyətlə, Cənubi Qafqaz regionunda davamlı sülhün əldə olunması istiqamətində Azərbaycan tərəfindən atılan addımların Meksika Senatı tərəfindən dəstəklənməsi ardıcıl hal almışdır. Hər iki tərəfin parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına yeni imkanlar açmışdır.

Bu il mayın 4-də Mexiko şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Meksika Xarici Əlaqələr Nazirliyi arasında siyasi məsləhətləşmələrin üçüncü raundu keçirildi. Məsləhətləşmələr zamanı ikitərəfli münasibətlərin mövcud vəziyyəti, habelə iqtisadi, turizm, energetika, mədəniyyət və təhsil sahələrində qarşılıqlı tərəfdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.

Ötən ilin noyabrında Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi E.Əmirbəyovun Meksikaya səfəri də siyasi əlqələrin inkişafına müsbət təsir göstərdi. Həmçinin Azərbaycan və Meksikada fəaliyyət göstərən beyin mərkəzləri arasında əməkdaşlığın genişləndirilməsi üçün də məqsədyönlü işlər aparılır.

İki ölkənin iqtisadi əməkdaşlığı son illər yüksələn xətlə inkişaf etməkdədir. Cari ilin fevralında Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Meksika Birləşmiş Ştatları Deputatlar Palatasının üzvü Alberto Viyya Viyyeqasın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində İqtisadiyyat Nazirliyində danışıqlar və müzakirələr apardı.

Azərbaycan ilə Meksika arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 2022-ci ildə 63.02 milyon dollar təşkil etmişdir. Meksikanın Azərbaycana ixrac etdiyi əsas məhsullar sırasına şəkər, nəqliyyat vasitələri, neft-qaz üçün nasos-kompressor boruları, tekila, pivə və digər kənd təsərrüfatı məhsulları daxil olmuşdur. Azərbaycanın ötən il Meksikadan ən çox idxal etdiyi məhsul şəkər xammalı olmuşdur (26 milyon dollar dəyərində). Eyni zamanda ölkəmiz 2.8 milyon dollarlıq nasos-kompressor boruları idxal etmişdir. Təkcə keçəm il ərzində Meksikadan Azərbaycana 15.5 milyon dollar dəyərində 1.838 avtomobil gətirilmişdir.

İki ölkə arasında mədəniyyətin müxtəlif sahələrində əlaqələr də inkişaf etməkdədir. İdman azarkeşləri "Formula-1" Azərbaycan Qran-prisinin uğurlu keçməsini yaxşı xatırlayırlar. Meksikalı pilot Serxio "Çeko" Peres Bakı şəhərində bu yarışın qalibi olmuşdur.

Cari il ərzində Azərbaycanın bütövlükdə Meksikada tanıdılması sahəsində müxtəlif xarakterli tədbirlərin keçirilməsi xoş təsir bağışlayır. Sentyabrın 6-da Meksikanın Xalisko ştatının Tonela şəhərində yerli Ticarət Palatası tərəfindən təşkil olunmuş tədbirdə Azərbaycanla bağlı geniş təqdimat keçirilmişdir. Tədbirdə yerli ictimaiyyətin nümayəndələrinə ölkəmizin tarixi, mədəniyyəti, ictimai-siyasi və iqtisadi həyatı barədə geniş və obyektiv məlumatlar verilmişdir.

Yolu Mexiko şəhərinə düşən hər bir soydaşımız onun mərkəzi küçələrinin birində salınmış Meksika-Azərbaycan Dostluq Parkında da iftixar hissi ilə istirahət edə bilər.

Həmçinin iki ölkənin elm və təhsil ocaqları, muzeyləri arasında əlaqələri də genişlənir. Bu əlaqələrin inkişaf etdirilməsi hər iki xalqın bir-birilə daha da yaxınlaşmasına müsbət təsir göstərir. Meksika bir dost ölkə kimi Azərbaycan dövlətinin sülh uğrunda apardığı təşəbbüsləri həmişə müdafiə edir. İki ölkə arasında siyasi sahədə münasibətlərin inkişafı digər sahələrdə əlaqələrin daha da güclənməsinə təkan verir. Azərbaycan özünün Latın Amerikası siyasətində bu dost ölkəyə xüsusi önəm verir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

Azərbaycan. - 2023.-17 sentyabr.- S.8.